# Şəhid kapitan Nurlan Mustafayevin sorağı ilə...





Nərimanov rayonu 177 nömrəli tam orta məktəbdə dil-ədəbiyyat müəllimi Nazilə Əliyevanın təşkilatçılığı ilə şəhid kapitan Nurlan Mustafayevə həsr olunmuş “Şəhidlər unudulmur” adlı anım mərasimi keçirilmişdir.



Azərbaycan Respublikasının Dövlət himni ilə başlanan anım mərasimində müəllim sinif rəhbəri olduğu 7a sinfinin Nurlan Mustafayevin adını daşıdığını vurguladı. O, şagirdlərə müraciət edərək qeyd etdi ki, şəhid adını daşıyan sinif həmişə məsuliyyətli olmalı, vətənpərvərlik onların daim devizi olmalıdır.

Müharibələr bizə olduqca çoxlu fəlakətlər gətirmiş, xeyli insan itkisi olmuşdur. Bu ağır itkilərdən biri də məhz bu şəhidimizin başına gəlmişdir.

Yeddi ay ailə həyatı olan şəhid Nurlan Mustafayevin ölümündən sonra bir oğul övladı dünyaya gəlmiş və onun adını daşıyır. Bir zamanlar şəhid kapitanın heç ağlına da gəlməzdi ki, şəhidlik zirvəsinə ucalacaq, məktəblərdə onun xatirəsi anılacaq, şəninə şeirlər söylənilləcəkdir. O, bu vətənpərvərliyi evdə valideynlərindən almış, məktəbdə isə bu hissi ona müəllimləri aşılamışdır.

Hərbidə intizamı ilə fərqlənmiş, qabaqcıl hərbçi kimi hörmət qazanmışdır. O, dörd dil bilirmiş. Hadrut qəsəbəsində qəhrəmancasına şəhid olmuşdur. Ölümündən sonra müxtəlif medallar və diplomlarla təltif edilmişdir.

Tədbirdə iştirak edən şəhid kapitan Nurlan Mustafayevin həyat yoldaşı Günay Mustafayeva ziyalı ailəsində doğulmuş, intellektual səviyyəli bir xanımdır. O, çıxışında N.Mustafayevin həyat yoldaşı olmasından qürur hissi duyduğunu açıqlamış, lakin Nurlansız yaşamağın onun üçün çətin olduğunu vurğulamışdır. Az müddət bir yerdə olmalarına baxmayaraq, ötən günlərin bir daha geri dönməyəcəyini xatırlatmışdır.

Biz isə Günay xanıma deyirik: “Başını dik tut, Günay xanım! Siz fəxr etməlisiniz ki, Nurlan kimi qəhrəmanın övladının anasısınız. Allah sizə səbir, dözüm, iradə versin ki, balaca Nurlanı firavan böyüdəsiniz və ona baxıb sevinəsiniz. Nurlan Mustafayev tək o ailənin oğlu deyil, o, Azərbaycan xalqının övladıdır. Bu millət həmişə onun xatirəsini anacaq, şəninə xoş sözlər söyləyəcəkdir.

Tədbirdə 6a və 7a sinif şagirdləri şəhidlərə həsr olunmuş şeirlər söylədi, vətənpərvərlik mahnıları səsləndirdilər, videoçarxlarda şəhidin döyüş yolunu əks etdirən kadrlar nümayiş etdirildi və şagirdlərin şəhidə aid çəkdikləri rəsm əsərləri, qəzetlər və inşa yazıları oxundu.

Tədbirdə çıxış edən məktəbin direktoru Günay Çəndirli və direktor müavini Afilə Cəfərova qonaqlara mərasimdə iştirak etdiklərinə görə minnətdarlıqlarını bildirdilər.

***“Azərbaycan”***

Azərbaycan.- 2021.- 3 noyabr.- S.5.